# AZƏRBAYCAN TİBB UNİVERSİTETİNİN

# TİBBİ MİKROBİOLOGİYA VƏ İMMUNOLOGİYA

# KAFEDRASININ

# İNKİŞAF STRATEGİYASI

**Azərbaycan Tibb Universitetinin missiya və baxışına uyğun olaraq, Tibbi mikrobiologiya və immunologiya kafedrasının məqsədi – tibbi mikrobiologiya və immunologiya fənninin dünya standartlarına və dövrün tələbinə cavab verən şəkildə tədris etmək, innovativ elmi-tədqiqatlar aparmaq, səriştəli səhiyyə işçilərini, o cümlədən həkim-mikrobioloqları yetişdirməkdir.**








# Tibbi mikrobiologiya və immunologiya kafedrasının fəaliyyəti aşağıdakı istiqamətlər üzrə aparılması planlaşdırılır:

- ❖Təlim-tədris işi istiqaməti;
- ❖Elmi və elmi-metodik işi istiqaməti;
- ❖Maddi-texniki bazanın möhkəmləndirilməsi istiqaməti;
- ❖Kadr potensialının inkişafı istiqaməti;
- ❖Səhiyyəyə və cəmiyyətə töhvə vermək istiqaməti.



# Təlim-tədris işi istiqaməti

- Tibbi mikrobiologiya və immunologiya üzrə təhsilin təkmilləşdirilməsi, onun beynəlxalq standartlara, eləcə də yeni tendensiya və texnologiyaya uyğun təşkil edilməsi;

- Mövcud tədris-metodik sənədlərin, o cümlədən tədris proqramlarının və dərs vəsaitlərinin müntəzəm olaraq nəzərdən keçirilməsi və yenilənməsi;

- Yeni tədris pillələri (magistratura) və yeni ixtisaslar (tibb bacısı) üzrə tədris-metodik və dərs vəsaitlərinin hazırlanması;

- Tələbə yönümlü və tələbələrin mənmuniyyətini artıran tədris prosesinin, tənqidi düşüncəni və problemlərin həll edilməsi sahəsində bacarıqları təşviq edən mühitin yaradılması;

- Professor-müəllim heyətinin ingilis dili biliklərinin artırılması;

- Təhsilalanların və müəllimlərin mübadilə proqramlarına cəlb edilməsinin genişləndirilməsi.








# Elmi və elmi-metodik işi istiqaməti

- Kafedrada aparılan elmi-tədqiqat işlərinin təkmilləşdirilməsi, onların ən aktual səhiyyə problemlərinin həll edilməsinə həsr edilməsi;
- Yerli və xarici elmi-tədqiqat institutları və universitetləri ilə birgə tədqiqatların və bilik mübadiləsinin aparılmasının təşkili;
- Ölkə və xarici təşkilatların elmi-tədqiqat işlərinin aparılması üçün elan etdiyi qrant layihələrində kafedra əməkdaşlarının fəal iştirakı;
- Elmi-tədqiqat işlərinin nəticələrinin nüfuzlu jurnallarda dərc edilməsi və kafedra əməkdaşlarının “Xirş-index”lərinin yüksəldilməsi;
- Aparılmış elmi-tədqiqat işlərinin nəticələrinin elmi-metodik praktik tövsiyyələr vasitəsilə səhiyyə xidmətinə çatdırılmasının təşviqi;
- Tibbi mikrobiologiya və immunologiya kafedrasının sərbəst fəaliyyətə başlamasının 100-illik yubileyinə həsr olunmuş Beynəlxalq Elmi-praktik Konfransın keçirilməsi.







# Maddi-texniki bazanın möhkəmləndirlməsi istiqaməti

- Tibbi mikrobiologiya və immunologiya üzrə təcrübi məşğələlərin təkmilləşdirilməsi üçün bütün tədris laboratoriyaların müasir laborator mebel və avadanlıqlarla, eləcə də internet, kompyuter və proyektorlarla təchiz olunması;
- Tibbi mikrobiologiya və immunologiya üzrə elmi tədqiqatların təkmilləşdirilməsi üçün müasir tədqiqat cihazları ilə təhciz olunmuş elmi-tədqiqat bölməsinin yenidən qurulması;
- Elmi-tədqiqat bölməsində bakterioloji, mikoloji, virusoloji, immunoloji və molekulyar-genetik müayinələrin aparılması üçün müvafiq laboratoriyanın qurulması və təchizi;
- Elmi-tədqiqat bölməsində müasir tələblərə cavab verən mikrob kulturalarının muzeyinin yaradılması;
- Kafedra əməkdaşlarının və təhsilalanların istifadəsi üçün kafedral kitabxananın qurulması.







# Kadr potensialının inkişafı istiqaməti




- Professor-müəllim heyətinin təlim və inkişaf ptoqramlarına cəlb edilməsi;

- Gənc  və perspektivli müəllimlərin professional inkişafına dəstək verilməsi;






- Professor-müəllim heyətinin professional inkişafında xarici (ingilis) dili bilməsinə önəm verilməsi;

- Kafedra əməkdaşlarının dissertasiya işləri üzərində çalışmasının təşviqi.

# Səhiyyəyə və cəmiyyətə töhfə vermək istiqaməti

- Səhiyyə təşkilatları ilə, xüsusilə mikrobioloji diaqnostik laboratoriya ilə tərəfdaşlığın qurulması və müayinələrin aparılması və qiymətləndirilməsi işinə köməklik göstərilməsi;
- Profilaktik tibbi tədbirlər çərçivəsində köhnə və yenidən əhəmiyyət qazanmış infeksiyalar haqqında maarifləndirici tədbirlərdə iştirak;
- Şəhid həkim ailələrinə müntəzəm olaraq dəstəyin göstərilməsi;
- “Yaşıl dünya naminə” layihəsinin həyata keçirilməsinə əməkdaşların və təhsilalanların cəlb edilməsi.












